@iscemr

www.conferences.az

XÜLASƏLƏR KİTABI / ABSTRACTS BOOK

UNEC AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

HEYDƏR ƏLİYEV MƏRKƏZİ

ISCEMR

RİİB Regional İnkişaf İctimai Birliyi

BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ

# V İQTİSADİYYAT VƏ İDARƏETMƏ SAHƏSİNDƏ TƏDQİQATÇILARIN BEYNƏLXALQ ELMİ KONFRANSI

*Bu konfrans "Bir əsrin iqtisadi nəticələri" mövzusunda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunur*

**22-25 İYUN 2023** HEYDƏR ƏLİYEV MƏRKƏZİ

# XÜLASƏLƏR KİTABI
# ABSTRACTS BOOK



# “Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları”nın Tətbiqinə Dair Məsələlər

**Cəfərov Elxan**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**Rzayeva Kəmalə**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**Xülasə**

Dünya iqtisadiyyatının qloballaşdırılması və beynəllişməsi mühasibat uçotu sahəsində standartlaşdırmanın zəruriliyi məsələsi artıq diskussiya obyekti olmadığı üçün MHBS dünyanın 150 ölkəsində tətbiq edilir.

Beynəlxalq regional lahiyələrin icrasında **transmilli korporasiyalar**la sıx iqtisadi və maliyyə əlaqələri qurmuş kiçik və orta sahibkarlar da sözügedən standartlara uyğun uçot qaydalarına yenidən baxılmasına maraq göstərdiyindən 2009-cu ildə MHBS Fondu tərəfindən hazırda 83 ölkədə tətbiq edilən KOS üçün MHBS buraxılmışdır.

Avropa iqtisadiyyatının əsasını təşkil edən kiçik və orta sahibkarların iqtisadi artımını təmin edən mənbələr araşdırılmış və Qarabağda iqtisadi həyatının bərpası və yenidənqurulması istiqamətində islahatların aparılması üçün bu müəssisələrdə toplanmış təcrübələrdən bəhrələnməsi göstərilmişdir.

KOS üçün MHBS üzrə 2-ci Bölməsində göstərilən faydalı maliyyə məlumatlarının keyfiyyət xüsusiyyətlərinin MUBS Fondu tərəfindən 2010-cu ildə qəbul olunmuş “Maliyyə Hesabatları üzrə Konseptual Əsasları”nın 3-cü mövzusunda təqdim olunan yanaşmalar əsasında qruplaşdırılması tövsiyə edilmişdir.

KOS üçün MHBS üzrə aktivlərin, öhdəliklərin, gəlir və xərclərin qiymətləndirilməsi araşdırılmış və müəyyən olunmuşdur ki, 35 bölmədən ibarət olan bu Standartın 2-ci bölməsində ilkin dəyər və ədalətli dəyərlə qiymətləndirilməsi nəzərdə tutulan aktivlərin, öhdəliklərin, gəlir və xərclərindən başqa, digər 10 bölməsində onların həmçinin mümkün satış dəyəri, cari dəyər və diskont dəyəri əsasında qiymətləndirilməsi göstərilmişdir.

**Açar sözlər:** Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, ilkin dəyər, ədaləli dəyər, cari dəyər